AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ DEPOZİT MƏRKƏZİ

# Emitentlərin CS/DR sistemindən istifadə kitabçası

BAKI – 2018

**“Təsdiq edilmişdir”**

**Azərbaycan Respublikasının**

**Milli Depozit Mərkəzinin**

**Idarə Heyətinin**

**____________ il tarixli qərarı**

**(_____№-li protokol)**

**Sədr ____________ A.Əliyev**

## Mündəricat


Sistem haqqında ........................................................................ 2

Sistemə giriş................................................................................ 2

Parolun dəyişilməsi ....................................................................... 4

Parolun bərpası............................................................................ 5

Emitentin Reyestrləri ..................................................................... 6

Sistemdən çıxış ........................................................................... 8

## Sistem haqqında

17 fevral 2016-cı il tarixində Azərbaycanın qiymətli kağızlar bazarının bütün infrastruktur institutlarını birləşdirən, beynəlxalq miqyasda tətbiq olunan qabaqcıl texnologiyalara əsaslanan vahid sistem istifadəyə verilmişdir. Yeni vahid sistem funksionallıq, iş prinsipi və ticarət imkanları baxımından tam müasir sistem olmaqla bazar iştirakçılarına təhlükəsiz və yüksək sürətli yeni istiqamətlər yaratmışdır

Sistemə "Azərbaycan Qiymətli Kağızlar Bazarının Vahid Ticarət, Ticarət Sonrası və Nəzarət Sistemi" adı verilmişdir. Qısaca olaraq CETA abreviaturası istifadə olunur (oxunuş qaydası – [SETA], abreviaturanın açılışı – "Centralised Exchange Trading in Azerbaijan", azərbaycanca – "Azərbaycan Mərkəzləşmiş Birja Ticarət Sistemi")

CS/DR sistemi CETA-nin bir hissəsidir. Clearing-Settlement and Depository-Registrar azərbaycanca Kliringq-Hesablaşma və Depozitar-Reyestrsaxlayıcı mənasına gəlir

Sistemdən istifadə zamanı yaranan problemlərə və suallara görə Milli Depozit Mərkəzinin (bundan sonra – MDM) texniki dəstək qrupuna support@mdm.gov.az ünvanına elektron məktub göndərməklə və ya 488-08-40 telefonuna zəng etməklə müraciət edilə bilər

## Sistemə giriş

Emitentin səlahiyyətli olan şəxsi (bundan sonra – İstifadəçi) sistemdən istifadə etmək üçün ilk öncə MDM-ə müraciət edərək istifadəçi adı və parolu əldə etməli və ya istifadə edəcək Asan İmza məlumatlarını MDM-ə təqdim etməlidir

1. Sistemə girişi etmək üçün istifadəçi veb brauzer proqram təminatının (tövsiyyə edilən – Google Chrome proqram təminatının son versiyası) ünvan sətrinə https://csdr.cmis.az:9080/index daxil edir və aşağıdakı pəncərə açılır (Şəkil 1):




Şəkil 1

***Qeyd:*** *istifadəçi kitabçasında bu və bundan sonrakı şəkillərdə istifadə olunan bütün məlumatlar nümunə xarakterlidir*

2. Əgər istifadəçi adı və parolu MDM-dən əldə edibsə, o zaman istifadəçi adı və parol yerinə əldə etdiyi məlumatları uyğun olaraq yazır. İstifadəçi sistemə "Asan imza" ilə daxil olacaqsa, o zaman "***Asan İmza***" hissəsinə daxil olaraq "Asan İmza" mərkəzindən verilən məlumatları daxil edəcək

## Parolun dəyişilməsi

İstifadəçi MDM-dən əldə etdiyi istifadəçi adı və parolu ilə ilk dəfə sistemə daxil olduqda parolu dəyişməlidir. Bundan əlavə, istifadəçi təhlükəsizliyin təmin edilməsi məqsədilə parolu hər 30 gündən bir dəyişməlidir

Parolu dəyişmək üçün istifadəçi:

1. Sistemə daxil olandan sonra sol tərəfdə yuxarı hissədə yer alan hüquqi şəxsin adının yanındakı balaca ox işarəsinə basmalıdır (şəkil 2)




Şəkil 2

2. Oxa basdıqdan sonra "***Parolu dəyiş***" yazısı çıxacaq (Şəkil 3). İstifadəçi bura daxil olmalıdır




Şəkil 3

3. "***Parolu dəyiş***" hissəsinə daxil olandan sonra istifadəçinin önünə aşağıdakı kimi pəncərə çıxacaq (Şəkil 4 )




Şəkil 4

4. İstifadəçi burada cari parol hissəsinə mövcud parolunu "*Yeni parol*" hissəsinə isə yeni parolunu daxil etməlidir. Sonrakı xanaya seçdiyi parolu təkrar daxil etməlidir. İstifadəçinin seçdiyi parol uzunluğu ən azı 8 simvol olmaqla, böyük hərf, kiçik hərf və rəqəmlərdən ibarət olmalıdır
5. İstifadəçi "*Göndər*" düyməsinə basaraq parolun dəyişilməsini təsdiq edir

## Parolun bərpası

Parol istifadəçi tərəfindən unudulduğu təqdirdə:

1. İstifadəçi sistemə giriş səhifəsində "*Parolumu unutmuşam*" düyməsinə basmalıdır (şəkil 1). Sistem parolun dəyişilməsi üçün linki istifadəçinin qeydiyyat zamanı MDM-ə təqdim etdiyi elektron poçt ünvanına göndərəcək
2. İstifadəçi həmin linkə daxil olaraq yeni parolunu Sistemə tanıtmalıdır

## Emitentin Reyestrləri

MDM-in emitentlər üçün yaratdığı interfeysdə emitent buraxdığı hər bir qiymətli kağız üzrə mülkiyyətçiləri və onlara məxsus qiymətli kağızın miqdarını əks etdirən siyahıya (bundan sonra – siyahı) baxa bilər. İstifadəçi siyahıya aşağıdakı qaydada baxa bilər:

1. Bunun üçün istifadəçi ilk olaraq "*[Emitentin Reyestrləri*" pəncərəsini menyudan seçməlidir




Şəkil 5

2. Açılmış pəncərədə Emitentin buraxdığı qiymətli kağızlar siyahı şəklində əks olunur. İstifadəçi qiymətli kağızın adının qabağındakı Şəkil 6-da göstərilmiş oxa basmaqla qiymətli kağız mülkiyyətçilərinin reyestri barədə məlumatları əldə etmək bilər (Şəkil 7)




Şəkil 6

3. İstifadəçi Şəkil 7-də göstərilən oxu basaraq məlumatları Excel faylı şəklində əldə edə bilər



| Ad | İSİN | Nominal qiymət | Valyuta | Miqdar |
|---|---|---|---|---|
| Qiymətli kağızın adı | AZ0123456789 | 2 | AZN | 10 000 |

| Sıra nömrəsi | QK Mülkiyyətçisi | Sənəd göstəricilər | Ünvanı | Ümumi miqdarı | Öhdəliklə yüklənmiş | Faiz nisbəti | Telefon | Pin Kod/VOEN |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Məmmədov Məmməd Mə | AZE1... | Bakı... | 1500 | 0 | 0.15 | 994702... | 2j95... |
| 2 | İslamov İslam İslam | AZE1... | Bakı... | 700 | 0 | 0.07 | 050515... | 4KU... |
| 3 | Əhmədov Əhməd Əhməd | AZE0... | Bakı... | 5000 | 0 | 0.5 | 051525... | 67M... |
| 4 | Əkbərov Əkbər Məmməd | AZE3... | Şuşa... | 700 | 0 | 0.07 | 050344... | AAA... |
| 5 | Kamilov Mənsur Nicat | AZE7... | Bakı... | 2100 | 0 | 0.21 | 050210... | 9876... |

1 2 3 20 items per page 1 - 1 of 1 Items

Şəkil 7

Aləti seçdikdən sonra istifadəçinin həmin alət üzrə görə biləcəyi məlumatlar aşağıdakılardır

1. **Sıra nömrəsi**: Siyahı üzrə sıra nömrəsidir
2. **QK mülkiyyətçisi**: Qiymətli kağız mülkiyyətçisinin (deponentin) fiziki şəxs olduqda – soyadı, adı, atasının adı; hüquqi şəxs olduqda – adı
3. **Sənəd göstəriciləri**: fiziki şəxs olduqda – şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, hüquqi şəxs olduqda – dövlət qeydiyyatı haqqında məlumat
4. **Ünvanı**: Deponentin ünvanı
5. **Ümumi miqdarı**: Deponentə məxsus qiymətli kağızların sayı
6. **Öhdəliklərlə yüklənmiş**: Deponentə məxsus öhdəliklərlə yüklənmiş qiymətli kağızlarının sayı
7. **Faiz nisbəti**: Qiymətli kağız mülkiyyətçisinin sahib olduğu qiymətli kağızların həmin alət üzrə ümumi buraxılışın sayına olan nisbətinin faiz göstəricisi
8. **Telefon**: Deponentin telefon nömrəsi (olduqda)
9. **FİN kodu / VOEN**: Deponent fiziki şəxsdirsə şəxsiyyətini təsdiq edən sənədin FİN kodu, hüquqi şəxsdirsə VÖEN-i göstərilir

## Sistemdən çıxış

İstifadəçi işlərini yekunlaşdırandan sonra məlumatlarının təhükəsizliyi baxımından sistemdən çıxış etməlidir. Bunun üçün istifadəçi aşağıda göstərilən (Şəkil 8) çıxış düyməsindən istifadə etməlidir




Şəkil 8